# İSLAM VƏ HUMANİTAR ELMLƏR

**İslam İnqilabının Böyük Rəhbəri**
**Ayətullah Xameneinin sözləri əsasında**

**Tətib edən: Səmavi təfəkkür müəssisəsi**

## Birinci fəsil: Humanitar elmlərin məzmunu

### Humanitar elmlərin əhəmiyyəti

### 1. Düşmənlərin hərtərəfli basqını qarşısında müdafiə vasitəsi

Materialist dünyada düşmənləri hücumdan daşındırmaq üçün hərbi imkanları gücləndirirlər. Müxtəlif böyük güclərin olduğu dövrdə rəqibdən qorunmaq üçün atom silahı istehsal edirdilər. Onlar bu silahın heç zaman işlənməyəcəyini bilsələr də, özlərini qorumaq üçün onu təhdid kimi saxlayır, daxili qüdrətlərini artırırdılar. Bizim daxildə yaratmalı olduğumuz iqtidar isə atom bombası, nüvə silahı istehsal etmək və hərbi imkanları gücləndirilmək deyil. Sözsüz ki, hərbi gücü normal həddə artırmaq lazımdır, lakin bizi müxtəlif səviyyələrdə düşmənlərin hərtərəfli basqılarından qoruyan amil bunlardır: imanı, elmi, texnologiyanı gücləndirmək, günün texnikalarına yiyələnmək, elm istehsalında qabaqcıl olmaq, xalqın və gənclərin istedadlarının müxtəlif sahələrdə - humanitar, təbii və təcrübi elmlərdə çiçəklənməsi, milli birlik və xalq arasında həmrəyliyin gücləndirilməsi. Bir xalqı gücləndirən bunlardır. Xalq bunlarla həm dünyasını gözəlləşdirər, həm də düşmənlərin təhlükəsindən qorunar. Bunlar özünümüdafiə vasitələridir. Biz bunlarla məşğul olmalı və bunları həyata keçirmək üçün məsuliyyət hiss etməliyik.[1]

---

[1] Kermanın alim və ruhaniləri ilə görüşdə çıxışından: 2005.

**2. Mədəni mühəndisliyin əsas sahələrindən biri**

Mən Mədəni İnqilab Ali Şurasının iclasında mədəni işlərdə çalışan dostlara demişəm ki, siz bu ölkədə mədəni mühəndissiniz. Həmin iclasda demişəm ki, iki əsas sahə vardır: humanitar elmlər və fundamental elmlər. Bunların hər birinin öz yeri var. Əgər biz burada humanitar elmlər üzərində təkid göstəririksə, mənası bu deyil ki, riyaziyyat, fizika, kimya və biologiyaya əhəmiyyətsiz yanaşırıq. Xeyr! Mən orada da eyni mövqedəyəm. Onların da öz adamları və şəxsiyyətləri var. Humanitar elmlərin də özü üçün adamları və şəxsiyyətləri olmalıdır. Bu iki əsas sahənin - yəni humanitar və fundamental elmlərin inkişaf etməsi üçün onların üzərində düşüncə, elm, pul və təbliğat işləri görülməlidir. Elmi yüksək səviyyədə məşğul olmanız lazımdır.[2]

[2] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

## 3. Cəmiyyətdə və beynəlxalq miqyasda humanitar elmlərin dəyər və əhəmiyyəti

Qızların biri humanitar fakültələrin məzunlarına müəyyən və mühüm mövqe verilməməsindən gileyləndi. Əslində isə belə deyil. Siz püxtələşib bu elmlərdə, məsələn tarixdə, sosiologiyada, psixologiyada inkişaf etsəniz, bilin ki, cəmiyyət daxilində və beynəlxalq aləmdə dəyəriniz yaxşı bir həkimdən əsla az olmayacaq, hətta çox olacaq. Siz görün dünyanın məşhur elm adamları arasında nə qədər həkim və nə qədər sosioloq, yaxud tarixçi var. Görürsünüz ki, ikincilərin sayı və dəyəri çoxdur. Lakin çalışmalı və inkişaf etməlisiniz. İndi əldə etdiklərinizlə, elmi elita və parlaq istedad adı ilə əsla qane olmayın.[3]

---

[3] Gənc alimlərlə görüşdə çıxışından: 2006.

## 4. Humanitar elmlərin inkişafın zəruri şərtlərindən olması

Ölkələr arasında elmi əlaqə ixrac və idxala əsaslanmalı, onda balans və tarazlıq qorunmalıdır. İqtisadi və ticari məsələlərdə bir ölkənin idxalı ixracından çox olduqda tarazlığın pozulduğu və ziyanın hiss olunduğu kimi, elmdə də belə olmalıdır. Elmi idxal edin, eybi yoxdur, amma ən azı idxal etdiyiniz qədər, yaxud ondan çoxunu ixrac edin. Yəni əlaqə ikitərəfli olmalıdır. Sizin daim digərlərinin elminin artığını yeyən olmanız inkişaf deyil. Elmi alın, istəyin, digərlərindən öyrənin, lakin siz də istehsal edin və digərlərinə verin. Burada da ehtiyatlı olun ki, sizin mübadilə balansınız mənfi olmasın... Sözsüz ki, məqsədim yalnız təbii elmlər deyil, həm də humanitar elmlər - sosiologiya, psixologiya və fəlsəfədir. Qərbin sosioloji nəzəriyyələri bəzi adamlar üçün Quran ayəsi kimi və hətta daha mötəbərdir! Filan sosioloq belə demişdir; daha oyan-buyanı yoxdur. Nə üçün belə olmalıdır?! Oturub fikirləşin, nəzəriyyə yürüdün. Bu elmlərin dünyada mövcud olanından istifadə edək, ona bir şey artıraq, yanlış nöqtələrini aşkara çıxaraq. Bunlar inkişafın zəruri şərtlərindəndir.[4]

---

[4] Kürdüstan vilayətinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2009.

**5. Humanitar elmlərin dünya hadisələrinə təsiri**

Dünyanın çoxlu hadisələri, hətta iqtisadi, siyasi və digər sahələr də humanitar nəzəriyyələrdən təsirlənir .[5]

---

[5] Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2008.

**Elmin və humanitar elmlərin səciyyələri**
**İslam baxımından:**
**1. Mənəviyyatla yanaşılıq**

Siz əziz gənclər bilin ki, hansı elm olursa-olsun, istər humanitar elmlərə, istər Quran elmlərinə, istər təbii elmlərə, istər bu gün çalışdığınız müxtəlif elmlərə girişmək və tədqiqat aparmaq sizi dini sahədə inkişafdan, əxlaqi çalışmadan saxlamasın. Bunların hamısına birgə malik olmalısınız. Əziz qardaşımızın məclisin əvvəlində oxuduğu ayədə deyilir ki, Allah-Taala Peyğəmbəri insanları öyrətmək və onları mənən paklamaq üçün göndərdi. Buna əsasən, təlim və paklamaq bir-biri ilə yanaşıdır. Bunları bir-birindən ayırmayın. "Elmi işlərə qoşulan şəxs təbii olaraq mənəviyyat və əxlaqdan kənarlaşmalıdır" fikri tamamilə səhv və idxal edilmiş bir fikirdir, məsihi Avropasında mövcud olan keçmişə əsaslanır, İslam cəmiyyəti və İslam təlimləri ilə əsla əlaqəsi yoxdur. Alim fəzilətli və əxlaqlı olsa, hansı fəndə olursa-olsun, bəşəriyyətin və öz ölkəsinin yüksəlişi üçün ona ümid bəsləmək olar. Bu alimin məqsədləri dəyərli məqsədlər, hərəkəti insaniyyətin, ədalətin, fəzilətin xeyrinə və bu gün dünyada mövcud olan neqativ hallara qarşı olar. Çalışın gələcəkdə belə alimlərdən olun, bu işləri özünüzə məqsəd seçin, dünyanın çarxını düzgün istiqamətə yönəldən insanlardan olun. Bunu özünüzə məqsəd seçin. Bu mümkündür və təbii ki, buna nail olmaq üçün çox çalışmaq lazımdır.[6]

---

[6] Gənc alim və tələbələrlə görüşdə çıxışından: 2004.

**2. İnsan üçün yeni düşüncə ortaya qoymaq**

İslamın insana, elmə, həyata, təbiətə və varlıq aləminə baxış tərzi insan üçün yeni düşüncə ortaya qoyur.[7]

[7] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2004.

## 3. Elmin dindən baş qaldırması və dinin elmə həvəsləndirməsi

Bizim dünyagörüşümüzdə elm dindən baş qaldırır, elmin ən yaxşı həvəslənidiricisi dinin özüdür. Bizim tanıdığımız din, Qurandan öyrənib əxz etdiyimiz dini dünyagörüş, eləcə də yaranış, insan, metafizika, tövhid, Allahın iradəsi, qəza və qədər haqda təsəvvürlərimiz elmlə uyğundur. Ona görə də din elmə səbəb olur və həvəsləndirir. Nümunəsinə özünüz tarixdə baxın. Bu dinin həvəsləndirməsinə görə İslamın ilk əsrlərində bütün sahələrdə elmi hərəkət yüksəlib o zamana qədər analoqu olmayan həddə çatdı. O zaman elm və dinin bir-birinə sıx bağlı olduğu şəraitdə elm, tədqiqat və texnika özünə görə çox inkişaf etdi.[8]

[8] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2004.

**4. Səadətə, inkişafa, ədalətə və bəşərin qədim arzularına vasitə olmaq**

İslamın elmə baxışı ilə materialist dünyanın elmə baxışının fərqi bundadır. Biz elmi bəşərin səadəti, inkişafı, çiçəklənməsi, ədalətin və bəşərin qədim arzularının bərqərar olunması üçün istəyirik.[9]

[9] Təhsil naziri və Tehran Universitetinin müəllimləri ilə görüşdə çıxışından: 2010.

**Qərb baxımından:**

**1. Dinlə fərqlilik və zidiyyət**

Bu gün Qərbdə mövcud olan humanitar elmlərin - iqtisadiyyat, sosiologiya, idarəetmə və digər sahələrin bünövrəsi İslamın uca tövhid etiqadına inananlar üçün etibarsız olan antidin və qeyri-dini dərkə əsaslanır.[10]

---

[10] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2004.

## 2. Materialist baxışa əsaslanmaq

Qərbin humanitar elmləri fərqli dünyagörüşə, yaranış haqda başqa və çox zaman materialist bir dərkə əsaslanır. Bu baxış və dərk səhvdir.[11]

[11] Qadınlardan ibarət Quran tədqiqatçıları ilə görüşdə çıxışından: 2009.

### 3. İnsanı heyvan saymaq

Humanitar elmlərin bir çox mövzuları materializmə, insanı heyvan sayan, Allah-Taala qarşısında məsuliyyətsiz bilən, insana və dünyaya qeyri-mənəvi baxışa əsaslanan fəlsəfələrə söykənir.[12]

[12] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2009.

**4. Elmləri köhnələndən sonra digər ölkələrə ötürmək**

Bu elmlərin çoxunun qapıları bizim kimi ölkələrin üzünə bağlıdır. Onun köçürülməsinə yalnız köhnəldikdən, təravətini itirdikdən sonra icazə verirlər. Bütün sahələrdə, o cümlədən humanitar elmlərdə belədir.[13]

Bunlar (qərblilər) nə təcrübi elmlərdə yaradıcılığa imkan verdilər, nə humanitar elmlərdə, nə də siyasi və ictimai elmlərdə. Buna görə də vəziyyət gördüyünüz kimidir.[14]

---

[13] Universitet Cihadı Təşkilatının ekspertləri və Elmi şura üzvləri ilə görüşdə çıxışından: 2004.

[14] İsfahan vilayətinin gəncləri ilə görüşdə çıxışından: 2001.

## Tarix

### 1. Avropanın cəhalət və qaranlıq dövrü olan Orta əsrlərdə müsəlman ölkələrin elmi inkişafı

Məgər Allah-Taala insanların bir hissəsini fərqli yaradıbmı və onlar həmişə öndə olmalıdırlarmı?! Hansı tarixi fakt bunu göstərir?! Məgər bu gün öndə olanlar bir neçə əsr bundan qabaq hər bir sahədə dünyanın geri qalmış xalqları deyildilərmi?! Məgər Avropanın Orta əsrlər dövrü tarixin yadından çıxıb?! Mən dəfələrlə demişəm ki, Orta əsrlər Avropa üçün cəhalət və zülmət dövrüdür, müsəlman xalqlar üçün yox. Adını cəhalət, nadanlıq, zülmət və yuxu dövrü qoyduqları həmin dövr bizim ölkəmizdə və digər müsəlman ölkələrində elm və fəlsəfənin əzəmət və inkişafı dövrü, siyasi inkişaf və iqtidar dövrü olmuşdur.[15]

---

[15] Gənc alimlər və universitet tələbələri ilə görüşdə çıxışından: 2008.

**2. Son yüz ildə yeni elmlərin gəlişi zamanı yalnız tərcümə və təqlidçiliklə məşğul olmaq**

İnqilabdan qabaqkı son yüz ildə bu ölkə üçün sözün həqiqi mənasında heç bir əsaslı iş görülməmişdir. Siz bu gün universitetdə elmi həqiqətlərdən xəbərdar olursunuz. Görürsünüz ki, bizim nə qədər görülməyən işimiz və gedilməyən yolumuz var. Bu yolları getmək, elm karvanı ilə yanaşı hərəkət etmək, ölkədə elmi, alimi, tədqiqatı, elm və tədqiqatda müstəqilliyi sınaqdan keçirmək olardı, amma bu işi görmədilər, onun əksini etdilər. Yeni elmin ölkəmizə daxil olduğu dövrdə daxil olan təqlid və tərcümədən ibarət idi. Sözsüz ki, məqsədim dəyərli bir əsərin tərcüməsi deyil; bu, lazımlı bir işdir. Məqsədim tərcümə düşüncəsi və ruhiyyəsidir; yəni bir xalqdan yaradıcılıq qüvvəsini, yeni söz cəsarətini almaq, həmişə başından vurmaq, bir yerə çatmaq və adam olmaq istəyirsə, qərblilərin gördüyü işi görməli olduğunu və ondan bir iynə ucu qədərincə də yayınmamalı olduğunu təlqin etmək. Bizim xalqımıza və elm mərkəzlərinə belə öyrətdilər, elmi yaradıcılığa və yeniliyə icazə vermədilər. Bu gün isə elm və düşüncəni istehsal etmək lazımdır.[16]

---

[16] İsfahan vilayətinin gəncləri ilə görüşdə çıxışından: 2001.

**3. Son onilliklərdə sual imkanı yaratmadan xarici mətnləri təkrarlamaq**

Bizim elm mərkəzlərimizdə müşahidə olunan böyük eyiblərdən biri budur ki, biz on illərdir xarici mətnləri təkrarlayır, oxuyur və əzbərləyirik, amma özümüzdə sual və tənqid gücü görmürük. Elmi mətnləri oxumaq və onu hər bir şəxsdən öyrənmək lazımdır. Lakin elmin tərəqqisi üçün onu inkişaf etdirmək cəsarətinə malik olan güclü və bacarıqlı insanlar olmalıdır. Belə olsa, inkişaf edəcək. Dünyada elm inqilabları belə baş vermişdir.[17]

[17] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**4. Pəhləvi dövründə elmdə sırf təqlidçi olmaq**

Universitetlər kəmiyyət baxımından da çox az idi. Pəhləvi rejiminin sonlarında ölkədə indikinin təxminən onda biri qədər tələbə vardı. Hər bir sahədə - istər humanitar elmlərdə, istər texniki və sənaye elmlərində, istər təbii elmlərdə tədris olunanlar digərlərinin sözləri idi. Elmi baxımdan yeni bir şey yox idi.[18]

[18] Tehranın cümə namazı xütbələrindən: 1999.

**5. Diktatura dövründə ali təhsilli təbəqəni öz bacarığına inamsız etmək**

Bu gün elmi işlərlə uzun diktatura dövrünün geriliklərini aradan qaldırmağa çalşmalıyıq. Həmin dövrdə istedadları çiçəklənməyə qoymadılar, bu xalqın əsl və həqiqi kimliyinin göstərilməsinə imkan vermədilər. Qərbin elm və sənaye inkişafının nəticəsi olan məhsulların idxalının ardınca, onun hər bir şeyini Qərbdən asılı etdilər. Düşüncə və mədəniyyət məhsullarını idxal etdilər. Gördükləri birinci iş ölkənin ali təhsilli təbəqəsini öz bacarığına inamsız etmək idi.[19]

---

[19] Pedaqoji universitetin bir qrup tələbəsinin məzuniyyət tədbirində çıxışından: 1998.

**6. Müstəmləkə dövründə digərlərinin elmi nailiyyətlərindən ağıllı istifadə yollarını öyrətməmək**

Müstəmləkə dövründə xalqda belə bir fikir yaratdılar ki, iranlı elm və təcrübəni, hətta istehsal və istehlakı da digərlərindən öyrənməlidir. Başqalarının elmi nailiyyətlərini necə ağıllı şəkildə öyrənib işlətməyi bizə öyrətmədilər. Biz digərlərinin elmi nailiyyətlərini öyrənməliyik. Bu yaxşı bir şeydir.[20]

[20] Neft naziri, nazirliyin əməkdaşları, ekspertləri və Küveyt neft quyularının yanğınsöndürmə mühəndisləri ilə görüşdə çıxışından: 1991.

**7. Dünyada elmin çiçəkləndiyi bir-iki əsrdə bizim geridə qalmağımız**

Təəssüf ki, dünyada elmin çiçəkləndiyi son bir-iki əsrdə biz geridə qaldıq. İnqilabın əvvəlindən yaşxı işlər görülmüşdür, lakin bu işlər daha sürətlə və geniş miqyasda davam etdirilməlidir. Sözsüz ki, məqsədim yalnız təbii elmlər deyil, humanitar elmlər - sosiologiya, psixologiya və fəlsəfə də belədir.[21]

[21] Kürdüstan vilayətinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2009.

**8. Keçmişdə azadfikirliliyə şəraitin olmaması**

Təəssüf ki, keçmişdə bizim ölkəmizdə azadfikirliliyə şərait olmamışdır. Tərcümə haqda deyilənlərlə razıyam. Tərcümə dedikdə məqsəd yalnız kitab tərcüməsi deyil, əslində əcnəbi mədəniyyət, düşüncə və nəzəriyyələrin tərcüməsidir. Onları Quran sözü hesab etmək və tənqidə bağlı saxlamaq cəmiyyətin bəlası olmuşdur.[22]

---

[22] "Qələm əhli" birliyinin üzvləri ilə görüşdə çıxışından: 2003.

**Humanitar elmlərdə islahatın zəruriliyi**

**1. Qərblilərin nəzəriyyələrini yalnız tərcümə etməkdən çəkinmək**

Yenilik və elm istehsalı bütün sahə və elmlərdə, xüsusən də humanitar elmlərdə lazımdır. Humanitar elmlərlə məşğul olan şəxslərin bildirdiyi kimi, biz bu elmlərdə yalnız qərblilərin fikirlərinin mütərcimiyik. Onlar bəzi sözlər demiş və yazmışlar, biz də öz təhsil müəssisələrimizdə onları deyir, tədris və təkrar edirik.[23]

---

[23] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2004.

**2. Cəmiyyəti elmi formada idarə etmək**

Elmdən söhbət etdikdə, ola bilsin birinci növbədə sənaye və texnologiya məsələlərinə aid elmlər yada düşsün. Amma mən bunu ümumi şəkildə deyirəm. Humanitar, ictimai, siyasi və iqtisadi elmlərin, cəmiyyətin və ölkənin idarəsi üçün lazım olan müxtəlif nəzəri bilgilərin elmi yeniliyə, yəni elm istehsalına ehtiyacı var.[24]

---

[24] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**3. Humanitar mövzuların araşdırılmasında din təsirinin nəticələri**

Humanitar elmlər digər elmlərdən fərqlənir. Humanitar mövzuların dini yönümdən araşdırılması fərqli nəticələrə gətirib çıxarır. Müsəlman cəmiyyətində, İslam quruluşunda İslamın əksinə hərəkət etmək, yaxud əks istiqamətinə rəvac vermək olmaz. Bu məsələyə çox həssas yanaşmaq lazımdır. Humanitar elmləri İslam əsasında araşdırıb yazmaq lazımdır. Əgər pul lazımdırsa, verilsin, kadr yetişdirmək lazımdırsa, bu işi görək. İnqilabdan indiyədək az zaman ötməmişdir. Prinsipcə, bu müddətdə işin əsas hissəsini görməli idik. Bu iş nə qədər geciksə, bir o qədər pis olacaq. Odur ki, bundan sonra vaxt tələf etmək olmaz.[25]

---

[25] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1992.

**4. Elmdə ehkamçılıqdan çıxmaq və azadfikirliliyi genişləndirmək**

Əgər həqiqətən elm, düşüncə və mədəniyyətin inkişafını istəyiriksə, Allahın verdiyi nemətlərdən və birinci növbədə azadfikirlilikdən istifadə etməyə ehtiyacımız var. Bizim cəmiyyətimizdə azadfikirlilik məzlum bir devizdir. Azadfikirlilik deyən kimi bəziləri bütün prinsipial təməllərin uçurulacağını düşünür və həmin təməlləri sevdiklərinə görə bundan qorxuya düşürlər. Başqa bir qrup da azadfikirliliklə bu təməllərin sındırılmalı olduğunu düşünür. Hər iki qrup mədəniyyət və inkişaf üçün vacib şərt olan azadfikirliliyə zülm edir. Bizim azadfikirliliyə ehtiyacımız var. Təəssüf ki, keçmişdə bizdə belə azad düşüncə şəraiti olmamışdır.[26]

---

[26] "Qələm əhli" birliyinin üzvləri ilə görüşdə çıxışından: 2003.

**5. Qərbin elmi düşüncə və təcrübələrini İslam meyarları ilə təmizləmək**

Şübhə yoxdur ki, humanitar elmlərin bir çoxunun burada, yəni bizim öz mədəniyyətimizdə güclü əsasları var, bəzilərini isə Qərb istehsal etmişdir; yəni bir elm kimi mövcud olmamış, elmdə inkişaf etmiş qərblilər tərəfindən yaradılmışdır. Misal üçün, psixologiya və digər elmlər belədir. Çox gözəl! Biz həm özümüzdə olanları araşdırmaqda, yazmaqda, nizam-intizama salmaqda bir elmi təfəkkürə və təcrübəyə ehtiyaclıyıq, həm də onların bu elmdə topladığı əsaslar üçün bir elmi baxış lazımdır. Lakin bizim qəbul etdiyimiz çərçivədən xaric bir toplumun elmi əsaslarını götürmək onun nəticələrini qəbul etmək demək deyil. Sanki siz bir zavodu idxal edirsiniz; onlar bu zavodda pis bir şey düzəldirdilər, siz isə yaxşı şey düzəldin, heç eybi yoxdur. Əgər o elmlər qarşısında həqarət hissi və onlara məftunluq olmasa, biz Qərbin humanitar elmləri ilə İslamın humanitar elmləri arasında sintezləməni qəbul edirik. Bunun eybi yoxdur. Görün humanitar elmlərdə İslam təfəkkürünüz, dərin və əzəmətli irsiniz sizə nə deyir. Bu gün qərblilər humanitar elmlərdə - iqtisadiyyatdan, siyasətdən, politologiyadan, sosiologiyadan və psixologiyadan tutmuş tarixə, ədəbiyyata, incəsənətə, hətta fəlsəfəyə və din fəlsəfəsinə qədər bütün sahələrdə qadağan olunmuş zona yaratmışlar. Bir qrup iradəsiz adam da özünü itirib bunların ağzına baxır; onlar nə desə, bunlar üçün Quran sözü olur. Bu səhv və pisdir. Misal üçün, dünyanın bir tərəfində bir neçə düşüncə sahibi elmi cəhətdən inkişaf edib bir nəticəyə çatmışdır. Bunun mənası o deyil ki, onlar nə düşünmüşlərsə, düzgündür. Siz öz əsaslarınıza baxın. Tarixin, fəlsəfənin, din fəlsəfəsinin, incəsənətin, ədəbiyyatın, hətta digərlərinin yaratdığı və elm şəklinə saldığı digər humanitar sahələrin əsasları da bizim öz

mədəniyyətimizdə, elmi, mədəni və dini irsimizdə mövcuddur. Belə bir müstəqil işlərə başlamalıyıq.[27]

[27] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

**6. Mövcud humanitar elmlərin yerli olmaması**

Bu gün dostlar humanitar elmlərin əhəmiyyəti barədə kifayət qədər danışdılar. Bunlar bizim ürək sözlərimizdir. Mən ötən il də humanitar elmlər haqda danışdım, amma bu sözlər bəzi şəxslər tərəfindən elm və məntiqdən uzaq reaksiyalara səbəb oldu. Həmin sözlərdən mənim əsla nəzərdə tutmadığım nəticələr çıxardılar. Humanitar elmlərə dair bizim sözümüz bu dostların tam haqlı olaraq dediyi sözlərdir: humanitar elmlər mühüm elmlərdir; ölkədə mövcud olan indiki humanitar elmlər bizə məxsus deyil, bizim ehtiyaclarımıza əsasən yazılmayıb, bizim fəlsəfə və inamlarımıza əsaslanmır. Bu elmlər ümumiyyətlə başqa məsələlərə aiddir və bizim problemlərimizi həll eləmir. Digərləri bir problemi ortaya qoyub özləri üçün həll etmişlər. Onların düzgün, yaxud səhv olması ilə işimiz yoxdur, amma kökündən bizə yaddır.[28]

---

[28] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2010.

**7. Müsəlman cəmiyyətin ehtiyaclarını aradan qaldırmaq üçün İslam humanitar elmlərinin yazılması**

Politologiya, iqtisadiyyat, fəlsəfə, idarəetmə, yaxud digər humanitar elmlər dünyaya materialist baxışa əsaslanırsa və materialist dəyərlər əsasında qurulmuşdursa, təbii ki, müsəlman və mömin cəmiyyətin istək və amallarını təmin edə bilməz.[29]

[29] Ramazan ayında universitet tələbələri ilə görüşdə çıxışından: 2010.

**Humanitar elmlərdə islahatın fayda və nəticələri**

**1. Təqlidçilikdən qurtuluş və tədqiqata diqqət**

Mənim dediyim Proqramlaşdırma və elm istehsalı hərəkatının sizin universitetinizdən və humanitar elmlərdən tələbi budur ki, bacardığınız qədər öyrənin və araşdırın. Qeyd etdiyim kimi, bəzi müəllimlər Qərbin humanitar nəzəriyyələrini özlərinə büt etmişlər. Deyirlər ki, Allah qarşısında səcdə etməyin, amma özləri bütlər qarşısında asanlıqla səcdə edirlər. Gənc tələbəni ona tapşırsan, tələbənin düşüncə sistemini də öz bütünə uyğun şəkildə formalaşdırar. Bunun dəyəri yoxdur və düzgün deyil. Mən belə şəxslərə əsla güvənmirəm. Bu müəllim nə qədər alim olsa da, faydalı deyil, zərərlidir. Bu gün xoşbəxtlikdən bizdə mömin gənc alimlər və imanlı ali təhsillilər var. Onlar humanitar elmlərdə sözün həqiqi mənasında böyük elmi hərəkət başlada bilərlər. Bunlardan istifadə olunmalıdır. Ehtiyatlı olun ki, sözügedən bütpərəstliyə uğramayasınız. Fəlsəfə, iqtisadiyyat, ictimai əlaqələr və siyasət elmlərində qərbli bir mütəfəkkirin ağzından çıxmış bir sözü qəti dəlil bilən şəxslər var. Bəzən isə o söz Qərbin özündə qüvvədən düşmüş olur. Belə nümunələr çoxdur.[30]

---

[30] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

**2. İslam sivilizasiyası yaratmaq, elmin inkişafı, texnologiya və mədəniyyətin istehsalı**

Hörmətli Mədəni İnqilab Şurasından, xüsusən də onun möhtərəm sədrindən istəyirəm ki, bütün universitet elmlərinin inkişafı, tərcümə olunmuş mətnlərin tənqidi, elm, texnika və sənayedə, xüsusən də humanitar elmlərdə və həmçinin İslam maarifində yaradıcılıq və istehsal dövrünün başlanması üçün bu ideyanı şuranın fəaliyyətində prioritet saysınlar, bu böyük iş üçün tədricən şərait yaransın və bizim universitetlərimiz yenidən İslam sivilizasiyasını yaratmaqda, elmin inkişafında, texnologiya və mədəniyyətin istehsalında ön sırada dursunlar.[31]

---

[31] Elm hövzəsi tədqiqatçılarının nəzəriyyə kürsüləri barədə məktubuna cavabdan: 2003.

**3. İmkan və inkişafları ümumi və tükənməz elm prosesinə cəlb etmək**

Bizim çoxlu dönəm fəaliyyətlərimiz, inkişaflarımız olmuşdur. Bunlar fərdlərə və xüsusi qruplara aiddir. Bunu bütün sahələrə və fakültələrə qədər genişləndirmək lazımdır. Bütün fakültələrdə güclü ümumi proses başlanmalıdır. Biz humanitar elmlərdən tutmuş təcrübi və digər elmlərə qədər hər yerdə bunu görməliyik. Bunun üçün çalışmaq lazımdır. Bir dəfə alimlərlə və universitet adamları ilə görüşəndə dediyim kimi, bunun üçün elmi cihad və mücahidlik lazımdır.[32]

[32] Gənc alimlərlə görüşdə çıxışından: 2010.

**Humanitar elmlərdə islahat aparılmamasının nəticələri**

**1. Gələcək kadr və məmurların sağlamlığı**

Mən universitetlərdə mövcud və mahiyyətcə zəhərli olan humanitar elmlərin təhlükəsinə dair həm universitetlərə, həm də məmurlara xəbərdarlıq etmişəm. Bu gün geniş yayılmış humanitar elmlərin İslam hərəkətinə və İslam quruluşuna mahiyyətcə müxalif və zidd olan, başqa bir dünyagörüşə əsaslanan, başqa sözü və məqsədi daşıyan məzmunları var. Bunlar öyrədildikdə kadrlar onların əsasında yetişir, sonra da universitetin, ölkə iqtisadiyyatının, daxili və xarici siyasətin, təhlükəsizlik və digər sahələrin başında dururlar.[33]

[33] Qum Elm Hövzəsinin tələbə, alim və müəllimləri ilə görüşdə çıxışından: 2010.

**2. İslam əsaslarına qarşı şübhələrin və etinasızlığın meydana çıxması**

Humanitar elmləri tərcümə edib qərblilərin dediyini və yazdığını olduğu kimi gənclərimizə öyrətməyimiz, əslində onlara ilahi və dini əsaslara və öz dəyərlərimizə qarşı şəkkaklıq, şübhə və inamsızlıq aşılamağımız çox da yaxşı hal deyil.[34]

---

[34] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2009.

### 3. Təqlidçi və yeni hadisələrdən xəbərsiz qalmaq

Siz bu gün humanitar elmlərdə, təbiət elmlərində, fizikada, riyaziyyatda və ya başqa bir sahədə dünyanın məşhur nəzəriyyələrinin ziddinə olan bir nəzəriyyə irəli sürsəniz, bəziləri ona qarşı çıxıb deyəcəklər ki, sizin iqtisadiyyatda filan sözünüz filan nəzəriyyənin ziddinədir; psixologiyadakı sözünüz filankəsin nəzəriyyəsinə müxalifdir. Yəni bunlar bir avropalı alimin fikirlərinə möminlərin Qurana və ilahi vəhyə inandığı kimi, hətta ondan da çox inanırlar. Maraqlıdır ki, bəzən bu nəzəriyyələr köhnəlib sıradan çıxır, yerinə yeni nəzəriyyələr gəlir, amma bunlar 50 il qabaqkı nəzəriyyələri müqəddəs mətn və bir din kimi qoruyub saxlayırlar. On illərdir Popperin siyasi və ictimai nəzəriyyələri köhnəlib qüvvədən düşüb, Avropada onun əleyhinə onlarla kitab yazılıb. Amma son zamanlar bəziləri peyda olub fəlsəfi dərk iddiası ilə onun nəzəriyyələrini yaymağa başlayıblar. Uzun illərdir dünyanın iqtisadi mərkəzlərinə hakim olan nəzəriyyələr qüvvədən düşmüş və yeni fikirlər otraya çıxmışdır. Amma indi də bəziləri iqtisadi layihələr həyata keçirmək istəyəndə köhnəlmiş nəzəriyyələrə baxırlar. Bunların iki eybi var: biri budur ki, təqlid edirlər, ikincisi budur ki, yeni dəyişikliklərdən xəbərsizdirlər. Vaxtilə onlar üçün tədris olunan bir mətni müqəddəs kitab kimi beyinlərində saxlayıblar və indi bizim cavanlarımıza ötürürlər. Bizim ölkəmiz fəlsəfənin beşiyidir, amma onlar fəlsəfəni düşünmək üşün başqalarına müraciət edirlər.[35]

---

[35] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışından: 2004.

### 4. Qərbin qarşısında özünə inamsızlığın yaranması

Yanlış yollardan qorxmaq lazımdır. Hərdən inkişaf üçün yanlış məsələ və yollar təklif edirlər. Bu səhv yolların başqa bir nümunəsi bəzən bizim dövrümüzdə də görünür. Buna diqqət yetirmək lazımdır. Bu ikinci nümunədə zahiri məsələlərin adı çəkilmir, islamçı kimliyi də qabaqkı kimi inkar olunmur, lakin siyasətçilərdə, cəmiyyətin rəhbərlərində və sözçülərində bu yarışmanın hərəkət və inkişafına dair ümidsizlik haləti müşahidə olunur. Yəni Qərbə çox yüksək və əlçatmaz bir nöqtə kimi baxırlar. Adını da qoyurlar realistlik. Deyirlər ki, reallıq budur, onlar bu gün elmi baxımdan bu qədər öndədirlər, müxtəlif sahələrdə bu qədər inkişaf etmişlər, humanitar elmlərdə, ictimai məsələlərdə, siyasi məsələlərdə bu qədər yeni və kreativ nəzəriyyə irəli sürüblər, biz bunların tozuna da çata bilmərik. Yəni onlarda belə bir hiss mövcuddur. Bu otuz il boyu mən özüm dəfələrlə belə insanlarla rastlaşmışam. Onlar ya açıq, ya yarımaçıq şəkildə, ya da dolayısı ilə deyirdilər ki, biz əlbəttə ki, hərəkət etməliyik, amma gərək bunların ardınca gedək; biz nəinki bunlardan önə keçə, heç bunların tozuna da çata bilmərik; nə üçün əbəs yerə özünüzə zəhmət verirsiniz?! Bu da bir yanlış yoldur.

Bunun mənası odur ki, bir xalq, o cümlədən müsəlman xalqlar həmişə Qərbin ardınca hərəkət etməyə, daim onların şagirdi olmağa məhkum olsunlar, nəinki onlardan önə keçməyə, heç o səviyyəyə çatmağa da ümid bəsləməsinlər, onlarda heç zaman belə bir hiss baş qaldırmasın. Bu çox təhlükəli bir yanlış yoldur. Təəssüf ki, bu yol bəzi universitet müəllimləri, siyasi mütəfəkkirlər və dini natiqlər tərəfindən təbliğ olunur. Bu, uzunmüddətli bəşəri təcrübənin tam ziddinədir. Məgər Allah-Taala insanların bir hissəsini fərqli yaradıbmı və onlar həmişə öndə olmalıdırlarmı?! Hansı tarixi fakt bunu təsdiq edir? Məgər bu gün öndə olanlar bir neçə əsr bundan qabaq hər bir sahədə dünyanın geri qalmış xalqları deyildilərmi?! Məgər Avropanın Orta əsrlər dövrü tarixin yadından çıxıb?! Mən dəfələrlə demişəm ki, Orta əsrlər Avropa

üçün cəhalət və zülmət dövrüdür, müsəlman xalqlar üçün yox, İran üçün yox. Adını cəhalət, nadanlıq, zülmət və yuxu dövrü qoyduqları həmin dövr bizim ölkəmizdə və müsəlman ölkələrində elm və fəlsəfənin əzəmət və inkişafı dövrü, siyasi inkişaf və siyasi iqtidar dövrü olmuşdur.

Bu baxış çox təhlükəlidir. Siz bu gün ölkənizdə elmi inkişaflar müşahidə edirsiniz. Məhz bu sahələrdə də bəziləri deyirdilər ki, faydası yoxdur. Lakin müsəlman gənc iradə və həvəslə işə başladı, digərlərinə çatdı, bəzi yerlərdə digərlərindən önə də keçdi, yəni sərf etdiyi zamana nisbətən önə keçmişdir. Buna əsasən, bu təfəkkür sözügedən yanlış yollardandır. Əsla ümidsiz baxmaq olmaz. Dinin, İslamın və Quranın insana baxışı budur: insan nəticə əldə etmək üçün nizam-intizamla, proqramla və müntəzəm olaraq çalışmalıdır.[36]

---

[36] Tələbələrlə görüşdə çıxışından: 2008.

## İkinci fəsil: Humanitar elmlərin quruluşu

**Müsbət cəhətlər**

**1. İslam dininin elmə baxışı**

Müsəlmanların bir neçə əsr dünyada elmin öncülü olmasının səbəbi İslamın elmə və biliyə diqqəti idi. Bu öncüllük Farabidən Xacə Nəsirə qədər təxminən üç əsr yüksək səviyyədə davam etmişdir. Xarəzminin riyazi fikirləri, yaxud İbn Sinanın tibbi nəzəriyyələri hələ də qüvvədən düşməmişdir. Onların əsasında yeni nəzəriyyələr yaranmış və sözsüz ki, təkmil edilmişlər, lakin sıradan çıxmamışlar. Bütün bunlar nədən irəli gəldi? İslam dinindən; yəni müsəlmanları elmi zirvəyə çatdıran əsas amil İslam dini idi.[37]

---

[37] İran İslam Respublikası radiosunun Elm şöbəsinin üzvləri ilə görüşdə çıxışından: 1992.

## 2. Humanitar elmlərdə öncüllüyümüz və parlaq keçmişimiz

Humanitar elmlərin müxtəlif sahələrində - ədəbiyyatda, fəlsəfədə, tarixdə, incəsənətdə bizim parlaq keçmişimiz var. Bəzi humanitar elmlər Qərbdən gəlsə də, əslində əqli və təcrübi məsələlərdən ibarət olan özülü İran-İslam təfəkkürü və ruhundandır. Xurafatçı Avropa biologiyanı, iqtisadiyyatı, idarəetməni, psixologiyanı və sosiologiyanı belə elmi şəklə sala bilməzdi. Bu, Şərqin və əsasən də müsəlman ölkəmizin elmçilik və təcrübəçilik təfəkkürünün sovqatıdır; oraya gedib bu yeniliklərə səbəb olmuşdur.[38]

[38] Gənc alimlərlə görüşdə çıxışından: 2007.

**Mənfi cəhətlər**

**1. Gözlənti və istedadlara uyğun hərəkət etməmək**

Biz xüsusən humanitar elmlərdə, gözlənildiyinin əksinə olaraq, yaxşı və münasib hərəkət etməmişik. İqtisadi, sosioloji, psixoloji, yaxud politoloji sahələrdə olan müxtəlif mövzular Qərbin elm mərkəzlərindən ilahi vəhy formasında alıb, dəyişməz formullar kimi beynimizə yerləşdirmişik; onların əsasında işləmək və proqramlarmızı tənzim etmək istəyirik. Bəzən bu formullar uyğun gəlmir, işimizi ləngidir, bizsə özümüzü qınayırıq ki, onları düzgün işlətməmişik. Halbuki üslub yanlış üslubdur.[39]

---

[39] Ölkə üzrə universitet müəllimləri ilə görüşdə çıxışından: 2003.

**2. Elmi tənqidlərə giriş cəsarətinin olmaması**

Həqiqətən ayıbdır ki, biz 20-25 ildir bəzi elmlərin mövzu başlıqlarını əsla dəyişdirməmişik. Bu, elmi tənqidlərə giriş cəsarətinin olmamasını göstərir. Biz bundan qorxuruq. İrad bildirmək cəsarətləri yoxdur; nə varsa, onu tədris edirlər.[40]

[40] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2010.

**3. Savadsız adamların yenilik adı altında mənasız sözlər danışması**

Səhv anlaşılmasın, mən heç kimə elmi anarxizmi və mənasız sözlər danışmağı tövsiyə etmirəm. Hər hansı bir sahədə elmsiz adamlar yenilik yaratmağa cəhd etsələr, danışdıqları cəfəngiyat olar. Biz bəzi humanitar və dini sahələrdə bunu görməkdəyik. Məlumatsız şəxslər yetərli savada və ehtiyata malik olmadan işə girişir, danışır və yenilik yaratdıqlarını xəyal edirlər. Bu əslində yenilik deyil, cəfəngiyatdır.[41]

---

[41] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**4. Bəzi şəxslərin Qərbin humanitar elmləri qarşısında təslimçiliyi**

Bu gün qərblilər humanitar elmlərdə - iqtisadiyyatdan, politologiyadan, sosiologiyadan və psixologiyadan tutmuş tarixə, ədəbiyyata, incəsənətə, hətta fəlsəfəyə və din fəlsəfəsinə qədər bütün sahələrdə qadağan olunmuş zona yaratmışlar. Bir qrup iradəsiz adam da özünü itirib bunların ağzına baxır; onlar nə desə, bunlar üçün Quran sözü olur. Bu, səhv və pis düşüncədir.[42]

---

[42] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

**5. Qərbin köhnəlib sıradan çıxmış nəzəriyyələrinə təslimçi baxış və onları ilahi vəhy saymaq**

Ehtiyatlı olun ki, sözügedən bütpərəstliyə uğramayasınız. Fəlsəfədə, iqtisadiyyatda, ictimai əlaqələr və siyasət elmlərində qərbli bir mütəfəkkirin ağzından çıxmış bir sözü qəti dəlil bilən şəxslər var; bəzən o söz Qərbin özündə qüvvədən düşmüş olur. Belə nümunələr çoxdur. Qırx-əlli il bundan əvvəl Qərbdə bir ictimai, yaxud siyasi filosof bir söz deyib, ondan sonra ona qarşı on tənqidi məqalə yazılıb. Bu cənab həmin əlli il qabaqkı sözü görüb yeni bir nəzəriyyə kimi ölkəyə gətirir, bəh-bəhlə tələbəyə, şagirdə və öz çevrəsinə təqdim edir.[43]

Mən bir müddət öncə burada ölkənin iqtisadi və digər sahələrində çalışan dostlara dedim ki, bu gün bəzi adamlar artıq qüvvədən düşmüş məsələlərlə məşğul olurlar. İndi onlardan üstün nəzəriyyələr meydana çıxmış və icra olunmuşdur, lakin onların sözünə vurğun olan bəzi qüvvələr köhnə nəzərləri indi irəli sürürlər. Bəziləri deyirlər ki, Allah-Taala qarşısında və dində mütilik düzgün deyil, amma özləri Qərbə, Avropa və Amerikaya mütidirlər. Bu insanlar Allah qarşısında mütiliyi qəbul etmirlər, amma Qərb kapitalizmi və onun siyasi güc mərkəzləri qarşısında mütiliyi can-dildən qəbul edirlər.[44]

Bəzi müəllimlər Qərbin humanitar nəzəriyyələrini özlərinə büt etmişlər. Deyirlər ki, Allah qarşısında səcdə etməyin, amma özləri bütlər qarşısında asanlıqla səcdə edirlər. Gənc tələbəni ona tapşırsan, tələbənin düşüncə sistemini də öz bütünə uyğun şəkildə formalaşdırar. Bunun dəyəri yoxdur və düzgün deyil. Mən belə şəxslərə əsla güvənmirəm. Bu müəllim nə qədər alim olsa da, faydalı deyil, zərərlidir.[45]

Ehtiyatlı olun ki, sözügedən bütpərəstliyə uğramayasınız. Fəlsəfədə, iqtisadiyyatda, ictimai əlaqələr və siyasət elmlərində qərbli bir

---

[43] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

[44] Universitet Cihadı Təşkilatının ekspertləri və Elmi şura üzvləri ilə görüşdə çıxışından: 2004.

[45] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

mütəfəkkirin ağzından çıxmış bir sözü qəti dəlil bilən şəxslər var; bəzən o söz Qərbin özündə qüvvədən düşmüş olur. Belə nümunələr çoxdur.[46]

[46] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

**6. Qərb örnəklərinə mütləq təqlidçilik**

Bəziləri inkişafı, tərəqqini, elmin inkişafını, rəqabəti, azadfikirliliyi və bu kimi məsələləri istəyirlər, amma yolunu Qərb nümunələrini mütləq şəkildə yamsılamaqda axtarırlar. Belə düşünürlər ki, bizdən öncə gedənlərin yolu ilə getməliyik. Bu yolu gedənlər kimlərdir? Hələlik bugünkü dünyada olan bəlli azlıq - yəni Qərb ölkələri, Avropa, Amerika Birləşmiş Ştatları və digər inkişaf etmiş ölkələr.[47]

[47] Kerman vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2005.

**7. Humanitar elmlərin əsaslarının Quran və İslam əsasları ilə ziddiyyəti**

Mən humanitar elmlərdən ötrü dəfələrlə universitet mənsublarından gileylənmişəm. Bu yaxınlarda bunu bir daha ifadə etdim. Bizim humanitar elmlərimiz Quran və İslamın əsasları ilə ziddiyyət təşkil edən təməllər üzərində qurulmuşdur.[48]

[48] Qadınlardan ibarət Quran tədqiqatçıları ilə görüşdə çıxışından: 2009.

**8. Humanitar elmlərdə məzmun və imkanların həddən artıq tələbə qəbulu ilə uyğun olmaması**

Bizə verilən məlumata əsasən, ölkəmizin təxminən üç milyon yarımlıq böyük tələbə toplumunun təxminən iki milyonu humanitar fənlərdə təhsil alırlar. Bu bir cəhətdən narahatlıq doğurur. Bizim humanitar elmlərdə yerli işlərimiz və İslam tədqiqatlarımız nə qədərdir? Humanitar elmlərdə kitablarımız nə qədərdir? Yaxud İslam dünyagörüşünə etiqadlı olub, sosiologiya, psixologiya, politologiya və ya digər humanitar fənni tədris edəcək sanballı müəllimimiz nə qədərdir ki, bu fənlərə bu qədər tələbə qəbul edirik? Bu, nigaranlıq doğurur. Humanitar elmlərin bir çox mövzuları materializmə, insanı heyvan sayan, Allah-Taala qarşısında məsuliyyətsiz bilən, insana və dünyaya qeyri-mənəvi baxışa əsaslanan fəlsəfələrə söykənir. Bu humanitar elmləri tərcümə edib qərblilərin dediyini və yazdığını olduğu kimi gətirib gənclərimizə öyrətməyimiz, əslində onlara ilahi və dini əsaslara və öz dəyərlərimizə qarşı şəkkaklıq, şübhə və inamsızlıq aşılamağımız çox da yaxşı hal deyil. Həm dövlət orqanlarında, məsələn Təhsil Nazirliyində, həm Mədəni İnqilab Ali Şurasında, həm də mövcud qərar mərkəzlərində, universitetlərin özündə və universitetlərdən xaricdə buna diqqət yetirmək lazımdır. Hər halda, bu çox əhəmiyyətli bir məsələdir.[49]

---

[49] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2009.

**9. Dərs vəsaitinin zəifliyi və İslamdan uzaq olması**

Bir məsələ universitetlərdə dərs vəsaiti məsələsidir. Bunun üçün işlər görülmüş və SƏMT (Humanitar Fənlərin Dərs Vəsaitlərinin Araşdırılması və Yazılması) komitəsi yaradılmışdır. Onlar bəzi dərs vəsaitləri hazırlamışlar və işləri təqdirəlayiqdir. Lakin təəssüf ki, bəzi sahələrdə kitablar lazım olduğundan olduqca azdır. Misal üçün, hüquq fənni belədir. Əslində çoxlu sahələr belədir, lakin biz bəzi elmlərdə geridəyik və lazımi təcrübəmiz yoxdur. Keçmişdə psixologiyada, sosiologiyada bizim tədqiqatçı və mütəfəkkirlərimiz olmamışdır. Odur ki, bu fakültələrdə kitablarımız yetərincə olmasa, bəlkə də heç kim bizi qınaya bilməz. Bəs hüquqda necə?! Cinayət hüququnda necə?! Bu gün bizim hüquq mütəxəssislərimiz burada iştirak edirlər. Müxtəlif hüquqi elmlərdə bizim dəyərli fəqihlərimiz kimi elmli olan varmı?! Həqiqətən bu hüquqşünasların arasında hüquqi məsələlərdə bir müctəhid kimi dərin və güclü olanı az tapmaq olar. Mən Cəvahir kitabının müəllifini demirəm. O bütün bunların fövqündə durur. Bütün fiqhi işləmiş Cəvahir sahibi kimi birisini tapmaq çətindir. Bu gün və həmişə təqlid müctəhidləri və onlardan aşağı səviyyəli böyük müctəhidlər olduğu halda, bizim hüququmuz nə üçün hələ də qeyri-islami hüquqdur?[50]

[50] Mədəni İnqilab Ali Şurasının sədri və üzvləri ilə görüşdə çıxışından: 1993.

**10. Humanitar elmlərdə xaricilərin diktəsini qəbul etmək**

Humanitar elmlərə dair bütün təkidlərə rəğmən, o da təxminən fundamental elmlər kimi idarə olunur və deyilən iradlar yerində qalır. Biz qulağımızı açıb sosiologiya, psixologiya, tarix və hətta fəlsəfə və ədəbiyyatda xarici diktələri gözləyirik.[51]

[51] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2006.

**Mövcud imkanlar**

**1. Humanitar elmləri inkişaf etdirmək üçün gənc və mömin alimlərin olması**

Bu gün bizdə xoşbəxtlikdən, gənc və mömin alimlər var. Onlar humanitar elmlərdə sözün həqiqi mənasında böyük bir elmi hərəkət başlada bilərlər. Bunlardan istifadə olunmalıdır.[52]

---

[52] İmam Sadiq (ə) universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2009.

**2. Geriliklərin quruluş və inqilab sayəsində aradan qaldırılması**

Bu gün ziyalı nəslin üzərinə xüsusi bir məsuliyyət düşür. Bu gün sizin ölkəniz, inqilabınız, şanlı İslam quruluşunuz elə bir dövrü yaşayır ki, elm və düşüncə sahibi olan hər kəs bu quruluşu və onu idarə edən beyin və qolları daha gücləndirməyə çalışmalı, əl-ələ verməlidir. Biz çətin dövrləri arxada qoymuşuq; müharibə dövrünü və müharibədən sonrakı çox problemli dövrü. İndi elə bir dövrdür ki, elmi işlərlə uzun diktatura dövrünün geriliklərini aradan qaldırmağa çalşmalıyıq.[53]

---

[53] Pedaqoji universitetin bir qrup tələbəsinin məzuniyyət tədbirində çıxışından: 1998.

**Təhdidlər**

**1. Təhsilli təbəqəni özünə inamsız etmək**

Həmin dövrdə istedadları çiçəklənməyə qoymadılar, bu xalqın əsl və həqiqi kimliyinin göstərilməsinə imkan vermədilər. Qərbin elm və sənaye inkişafının nəticəsi olan məhsulların idxalının ardınca, onun hər bir şeyini Qərbdən asılı etdilər. Düşüncə və mədəniyyət məhsullarını idxal etdilər. Gördükləri birinci iş ölkənin ali təhsilli təbəqəsini özünə inamsız etmək idi.[54]

---

[54] Pedaqoji universitetin bir qrup tələbəsinin məzuniyyət tədbirində çıxışından: 1998.

**2. Tələbəni və universiteti ölkənin inkişafından yayındırmaq**

Əmin olun ki, bu gün casus şəbəkələrinin diqqət mərkəzində olan məsələlərdən biri İranın ayıq tələbə və universitetini ölkənin tərəqqisi ilə nəticələnəcək yoldan saxlamaq və ona mane olmaqdır.[55]

---

[55] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**3. Xalqdan özünəinam hissini və nəzəriyyə yürütmək cəsarətini almaq**

Daha böyük mədəni hücum budur: onlar uzun illər iranlı beyninə yeridiblər ki, sən bacarmırsan, sən Qərbin və Avropanın arxasınca getməlisən. Uzun illər bizi özümüzə inanmağa qoymayıblar. Əgər siz bu gün humanitar elmlərdə, təbiət elmlərində, fizikada, riyaziyyatda və ya başqa bir sahədə dünyanın məşhur nəzəriyyələrinin ziddinə olan bir nəzəriyyə irəli sürsəniz, bəziləri ona qarşı çıxıb deyəcəklər ki, sizin iqtisadiyyatda filan sözünüz filan nəzəriyyənin ziddinədir; psixologiyadakı sözünüz filankəsin nəzəriyyəsinə müxalifdir. Yəni bunlar bir avropalı alimin fikirlərinə möminlərin Qurana və ilahi vəhyə inandığı kimi, hətta ondan da çox inanırlar.[56]

[56] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışından: 2004.

**4. Xalqları elm və yaradıcılqdan uzaq saxlamaq**

Dünyanın ekspansionist gücləri bütün dünyaya göz dikmişlər, xalqların elmindən, savadından, yaradıcılığından acıqları gəlir və hər şeyi öz əllərinə keçirmək istəyirlər.[57]

[57] "Sərçeşmə misi" kompleksinin əməkdaşları ilə görüşdə çıxışından: 2005.

**Humanitar elmlərin mənbələri**

**1. Quran və İslam əsasları**

Müəllim, mütəfəkkir və tədqiqatçılar humanitar fənlər üçün İslamın əsaslarına uyğun olan, yanlış və səhv materialist fəlsəfələrə istinad etməyən kitablar yazmalıdırlar.[58]

Humanitar elmlərin təməlini və kökünü Quranda axtarmaq lazımdır. Quran tədqiqatlarının mühüm sahələrindən biri budur. Müxtəlif sahələrdə Quranın dəqiq məqamlarına diqqət yetirmək, humanitar elmlərin əsaslarını Qurani-kərimdə axtarmaq və tapmaq lazımdır. Bu çox əsaslı və mühüm bir işdir. Əgər baş tutsa, humanitar elmlərin mütəfəkkir, araşdırmaçı və mütəxəssisləri bu təməl üzərində böyük elmi işlər görə bilərlər. Sözsüz ki, digərlərinin, qərblilərin və humanitar elmlərdə inkişaf etmiş alimlərin nailiyyətlərindən də istifadə edə bilərlər, lakin əsas və təməl Quran olmalıdır.[59]

---

[58] Minlərlə universitet tələbəsi ilə görüşdə çıxışından: 2010.

[59] Qadınlardan ibarət Quran tədqiqatçıları ilə görüşdə çıxışından: 2009.

**2. Zəngin İslam mədəniyyəti**

Bizim humanitar elmlərdə tədqiqata və yeniliyə ehtiyacımız var. Hüquq, iqtisadiyyat, politologiya və humanitar elmlərin digər önəmli sahələrini formalaşdıran və onu istehsal edən mühüm məfhumlar bizim dərin və zəngin İslam mədəniyyətimizdə həqiqətən, mövcuddur. Onlardan istifadə etmək lazımdır.[60]

---

[60] Ölkə üzrə universitet müəllimləri ilə görüşdə çıxışından: 2003.

**3. Möhtəşəm və zəngin İslam irsi**

Əgər o elmlər qarşısında həqarət hissi və onlara məftunluq olmasa, biz Qərbin humanitar elmləri ilə İslamın humanitar elmləri arasında sintezləməni qəbul edirik. Bunun eybi yoxdur. Görün humanitar elmlərdə İslam təfəkkürünüz, dərin və zəngin irsiniz sizə nə deyir.[61]

[61] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

**Mənzərə**

**1. Elm və texnologiyada qabaqcıl olmaq**

Biz "elmin sərhədlərini yarmalı və günün elmi sözündən bir addım önə keçməliyik" deyəndə bu bəzilərinə inanılmaz görünür. Mən deyirəm biz elə bir yerə çatmalıyıq ki, dünyanın hansısa bir tərəfində bir tədqiqatçı, bir alim filan elmi, yaxud fəlsəfi nəzəriyyəni mənimsəmək istəyəndə sizin dilinizi öyrənməyə məcbur olsun. Lakin bəzi şəxslər buna inanmırlar. Mən bunun mümkünlüyünə inanır, sanki gözlərimlə görürəm. Biz iradə etsək, elə bir iş görə bilərik ki, iyirmi ildən, otuz ildən sonra dünyanın elm və texnologiya üzrə məşhur şəxsiyyətlərinin adlarını çəkəndə iranlılar və bizim ölkəmiz başda durar. Biz bu işi görə bilərik. Bizim istedadlarımız çox yaxşıdır. Hər şey bunu təsdiq edir. Bizdə özünəinam hissi az idi, onu da inqilab təmin etdi. Biz bu gün özümüzə güvənirik. Xoşbəxtlikdən, ölkədə elm prosesi də yaxşıdır. Bizim gənclərimiz bu gün özlərinə güvənirlər.[62]

---

[62] Kerman vilayətinin elmi elita nümayəndələri ilə görüşdə çıxışından: 2005.

**2. Elmdə dünya üzrə birinci yeri tutmaq**

Ölkəmiz elmdə və ona bağlı məsələlərdə dünya üzrə birinci yerlərdə durmalıdır. Demirəm beş ildən, on ildən sonra, xeyr, bunu əlli ildən sonra üçün məqsəd seçin. Biz buna nail olmalıyıq və bunun güclü iradəyə ehtiyacı var. Mən sizə deyirəm: Əmin olun! Bu xalq elə bir xalqdır ki, hərəkətə başlasa, mütləq məqsədinə çatacaq.[63]

[63] Simnan vilayətinin elmi elita nümayəndələri ilə görüşdə çıxışından: 2006.

### 3. İranın dünya alimləri üçün elmi mənbə olması

Bizim gənclərimizin məqsədi bir-iki onillikdən sonra ölkələrini dünya alimləri üçün elmi mənbəyə çevirmək olmalıdır. Elm və tədqiqatda "daha çox səy və daha çox iş" budur.[64]

Dünya xalqları, dünyanın alim və mütəfəkkirləri elmi məsələlərdə yeni addımlar atmaq üçün İrana, onun dilinə və mədəniyyətinə ehtiyaclı olduqlarını hiss etməlidirlər. Bu mümkündür. Bu gün bəşərin ehtiyacı olan bir çox elmləri öyrənmək üçün hansısa ölkə və xalqın dilini öyrənməyə ehtiyac olduğu kimi, o zaman da dünya xalqları sizin dilinizi və mədəniyyətinizi öyrənməyə ehtiyac duyacaq. O gün gələcək və mümkündür. Əgər biz iradə ilə çalışsaq, bu gün müşahidə olunan səy və Allahın lütfü ilə gənclərimizin, mütəfəkkirlərimizin və xalqımızın ürəyinə dolmuş maraq davam etsə, o gün çox uzaqda olmayacaq.[65]

---

[64] İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışından: 2010.

[65] Fars vilayətində yüzlərlə alim və ziyalı ilə görüşdə çıxışından: 2008.

**Pozitiv çıxış yolları**

**1. Humanitar elmləri yazmaq üçün ekspert qrupu yaratmaq**

Humanitar elmlərin bütün sahələrində - fəlsəfədə, tarixdə, coğrafiyada və digər fənlərdə elmi gücünə heç bir şübhə olmayan insanlardan ibarət kiçik qruplar yaradılsın və onlar mətnlərə yekun rəy bildirsinlər.[66]

Elmi mətnləri oxumaq və onu hər bir şəxsdən öyrənmək lazımdır. Lakin elmin tərəqqisi üçün onu inkişaf etdirmək cəsarətinə malik olan güclü və bacarıqlı insanlar olmalıdır. Belə olsa, inkişaf edəcək. Dünyada elm inqilabları belə yaranmışdır.[67]

---

[66] İslam Ensiklopediyası Mərkəzinin üzvləri ilə görüşdə çıxışından: 1989.

[67] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**2. İxtisaslı qruplar vasitəsi ilə yeni nəzəriyyələrin tənqidi araşdırılması**

Bu gün təəssüf ki, bir nəfər yeni bir nəzəriyyə irəli sürməyib yalnız bir bidət söyləsə, bir ənənəyə qarşı çıxsa və hörmətsizlik etsə, populistliklə bir qrupu ətrafına toplaya bilir. Ona müxalif olanlar da eyni üsuldan istifadə edir və lənətləməklə onu qınamağa başlayırlar. Bəlkə də qınamaq lazım olur, amma çox zaman qınaq tərzi düzgün seçilmir. Təbii ki, hər iki iş yanlışdır. Çünki o, yeni nəzəriyyədirsə, əvvəlcə mütəxəssislər arasında irəli sürülməli, münsiflər heyəti onun elmi cəhətdən məqbul olmasını və elmi əsaslara dayanmasını, boşboğazlıq, populizm və ajiotaj olmadığını təsdiqləməlidir. Gərək əvvəlcə bunu müəyyən etsinlər. Elmi dəyəri bəlli olduqdan sonra onu tənqid etməli, haqq, yaxud nahaq olmasını söyləməli, iradlarını bilidirməli, əsaslarının düzgün, yaxud səhv olduğunu deməlidirlər.[68]

---

[68] "Qələm əhli" birliyinin üzvləri ilə görüşdə çıxışından: 2003.

**3. Elmi tənqid imkanı və metodik diskussiyalar**

Bu ideya - istər elmi münsiflər heyətinin iştirakı ilə keçirilən və tənqidin mümkün olduğu metodik mübahisələr, istər nəzəriyyə yürüdənlər üçün imkan yaratmaq və sonra onların fikirlərinin hövzə və universitet auditoriyası qarşısında mütəxəssislər tərəfindən tənqidi və araşdırılması yalnız bəzi dini düşüncələrə, yaxud humanitar və sosial elmlərə deyil, bütün elmlərə, nəzəri və praktik fənlərə, hətta fundamental və təcrübi elmlərə də şamil olsun, bu elmlərin, həmçinin texnika və sənayenin kəşf, ixtira və nəzəriyyə sahiblərinə dəstək üçün də belə bir şərait yaradılsın.[69]

---

[69] Elm hövzəsi tədqiqatçılarının nəzəriyyə kürsüləri haqda məktubuna cavabdan: 2003.

**4. Universitetlərə qəbul məsələsinə diqqət yetirmək**

Humanitar elmlərə dair başqa bir məsələ universitetlərə qəbul olunanlar və onu bitirənlər məsələsidir. Bu da Təhsil nazirliyinin ağır vəzifələrindən biridir. Biz görək universitetlər həqiqətən kimləri və hansı fakültələrə qəbul edir, sonra təhsili bitirənlər hansı fakültələrdən məzun olurlar, bizim onlara hansı dövri, yaxud fundamental ehtiyacımız var. Bu məsələ barədə düşünmək lazımdır.[70]

[70] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2006.

**5. Daim çalışmaq və nəzəriyyə yürütmək**

Ümumi tövsiyə kimi gənclərə xas müntəzəm fəaliyyət və mübarizəyə toxunmaq istəyirəm. Universitetdə olduğunuza, fəaliyyətinizin universitet fəaliyyəti olduğuna görə siz dərs oxumalı, araşdırmalı və nəzəriyyə yürütməlisiniz.[71]

---

[71] Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2008.

**6. Elmi ehtiyac və prioritetləri təyin etmək və təhsil proqramlarında nəzərə almaq**

Dövlət məmurlarının da məclisdə iştirak etdiyinə görə, mənim ikinci tövsiyəm budur ki, elmi ehtiyac və prioritetləri özümüz təyin edək və təhsil proqramlarımıza salaq. Humanitar, fundamental elmlərdə, təcrübi elmlərin müxtəlif sahələrində, yaxud müxtəlif tədqiqat pillələrində tam mütaliə və araşdırma nəticəsində bəzi prioritetlər təyin etmək olar. Bunlar nəzərə alınmalı və proqramlara daxil edilməlidir.[72]

---

[72] Elmi elita nümayəndələri və universitet müəllimləri ilə görüşdə çıxışından: 2008.

**7. İslamın görüşlərini bəyan etmək yolu ilə Qərblə pozitiv rəftar**

Dostların biri dedi ki, biz indiki humanitar elmlərdə Qərblə neqativ yox, pozitiv mübarizə aparaq; yəni İslamın görüşlərini ortaya qoyaq. Bəli, şübhəsiz ki, əsas məsələ də budur. Bir məsələ ortaya qoyulanda cavab vermək lazımdır; ya o cavab verəcək, ya biz.[73]

[73] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2010.

**8. Qərb düşüncələrinin inkişafının qarşısını almaq üçün padzəhər tapmaq**

Qərbin materialist filosof, yazıçı və mütəfəkkirlərinin düşüncələri bu gün bizim universitetlərimizdə kitab və tərcümə formasında mövcuddur. Bunların qarşısına sədd çəkmək olmaz. Bu mümkün və məsələhət deyil. Düşüncələr gəlməli və bilinməlidir. Lakin belə düşüncələrin qarşısında padzəhər düzəltmək lazımdır.[74]

[74] Cümə imamlarının toplantısında çıxışından: 1991.

**9. Humanitar elmlərdə yeni məsələlər ortaya qoymaq və nəzəriyyə yürütmək**

Köhnəlmiş söz, mövzu və məsələlərin yerini doldurmaq üçün yeni mövzular irəli sürülməli, hər bir elmdə beyin çevrəsi lazımi məfhumların həcmi baxımından təkmil olunmalıdır. Bunun üçün çox çalışmaq lazımdır.[75]

Elmdən danışdıqda birinci növbədə sənaye və texnologiya sahələrinə aid elmlər yada düşə bilər. Amma mən ümumi şəkildə deyirəm. Humanitar, ictimai, siyasi və iqtisadi elmlərin, cəmiyyəti və olkəni idarə etmək üçün lazım olan müxtəlif nəzəri məsələlərin elmi yeniliyə, yəni nəzəriyyə yürütməyə ehtiyacı var.[76]

---

[75] Qum Elm Hövzəsinin elmi elita nümayəndələri ilə görüşdə çıxışından:1995.

[76] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**10. Elm üçün qısa yollar tapmaq və yeni sərhədlər təyin etmək**

Bizim bütün sahələrdə elmi inkişaf sərhədlərinə doğru yolumuz, əmin olun ki, müstəqillik, Allaha təvəkkül və iman naminə çalışmaq hissi olmadan keçilməyəcək. Bu yolu cəld keçməli, qısa yollar tapıb özümüzü oraya çatdırmalı, elmin sərhədlərini yarıb yeni sərhədlər yaratmalıyıq. Bu iş mümkündür.[77]

[77] Universitet Cihadı Təşkilatının ekspertləri və Elmi şura üzvləri ilə görüşdə çıxışından: 2004.

**11. Xalqda və elmi toplumda elmi zəfərlər, başucalığı və istehsalçılıq hissi yaratmaq**

Biz bilməliyik ki, elm bir fərddə başucalığı və özünəinam yaratdığı kimi, bir xalqda da eyni işi görür. Siz baxın, özü üçün hər hansı bir elmi məqam tanıyan alim pul və siyasi güc qarşısında qaldıqda bəzi şərtlər onu zahirən kiçilməyə və güzəştlərə məcbur etsə də, ürəyində özünə hörmət tanıyır, özündə olanı tərəf-müqabilində olmayanla müqayisə edir və buna görə də başucalığı, özünəinam və qürur hissi keçirir. Bir xalq da belədir. Elmdən bəhrələnən, elmdə inkişaf edən və yenilik göstərən xalq təbii şəkildə özünə inanar və özü ilə qürur duyar. Hansı xalqda inam və başucalığı olsa, onun çoxlu problemləri həll olunar, böyük işlər görər, risklərdən qorxmaz, çətin işlərə girişər və dağları yerindən qoparar. Bütün bu işlərin açarı elmdir. Biz ölkəmizdə elmi dirçəltməliyik.[78]

[78] Təhsil naziri və universitet rektorları ilə görüşdə çıxışından: 2005.

**12. Humanitar elmlərə dair müxtəlif universitetlər açmaq**

Bu universitetdə görülən ən yaxşı işlərdən biri onun humanitar elmlərə aid edilməsidir. Bu doğrudan da boş və baxımsız sahə və bu iş vacib idi.[79]

[79] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

**13. Dərs vəsaitlərində və kitablarda İslam əsaslarına diqqət yetirmək**

Mənə verilən məlumata əsasən, bizim hüquq institutlarımızda tədris olunan məsələlər İslam əsaslarına ziddir. Keçmişdə də, inqilabdan sonra və indi də universitetdə fəaliyyət göstərən, uyğun məsələlərdən xəbərdar olan bir nəfər mənə deyirdi ki, bu institutlar İslama yaxınlıq baxımından inqilabdan öncə daha yaxşı durumda idilər. Çünki o zaman ənənəvi və dini hökmlərə riayət edən müsəlman olmasa da, İslam hüququnu bilən şəxslər vardı. Onlar elmə hörmət olaraq hüquq məsələlərindən danışarkən İslamın fikrini də deyir və onun üstünlüyünün dəlillərini söyləyirdilər. Bu gün isə bir qrup müəllim inadkar şəkildə məsələləri gizlətməyə və korlamağa çalışır. Bunu mənim inandığım məlumatlı bir insan deyirdi. Sonra mən belə məlumatlardan çox gördüm. Bu yaxınlarda dəyərli və görkəmli şəxslərdən biri bir məlumat vermişdi. Mən onu aidiyyətli məmura göndərdim, inşallah bir çarə qılar. Hüququn tədrisinə, hüquq kitablarına və hüquq müəllimlərinin dediklərinə dair insan bəzi təəssüflü məqamlar müşahidə edir. İslam hüququnu bilməyən şəxslər onu rədd edir, ona hörmətsizlik bildirirlər. Məncə bu düzgün deyil. Yəni biz İslam kitabları üzərində olduqca çox işləməliyik. Qumda həvəskar və istedadlı hövzə tələbələrindən bir qrupu bəzi universitetlərlə əlaqədədirlər, bəzi kitablar yazmışlar. Bunu genişləndirmək və inkişaf etdirmək lazımdır. Təbii ki, müxtəlif sahələrdə belədir. Mən nümunə və misal kimi hüquqdan danışdım. Qısası budur ki, İslamın dəyər məsələləri ilə əlaqədar olan dərs vəsaitlərində İslam istiqamətlərinə xüsusi diqqət ayırmaq lazımdır. Humanitar elmlər idxal olunmuş elmlərdəndir. Bu elmlər, məsələn psixologiya, sosiologiya və digər fənlər bizim özümüzdə olmamışdır. Bu hal onlara da keçməməli və xüsusi bir iş görülməlidir.[80]

---

[80] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1993.

**Neqativ çıxış yolları**

**1. Ali təhsildə məqsədsiz inkişafdan çəkinmək**

Mənim ikinci tövsiyəm budur ki, elmi ehtiyac və prioritetləri özümüz təyin edək və təhsil proqramlarımıza salaq... Biz imkanlarımızın məhdudluğuna və ehtiyaclarımızın çoxluğuna görə prioritet olmayan bir işə düşüncə, pul, zaman və insan kapitalı ayıra bilmərik.[81]

---

[81] Elmi elita nümayəndələri və universitet müəllimləri ilə görüşdə çıxışından: 2008.

**2. Təcrübə və tərcümə sahəsində daimi durğunluqdan çıxmaq**

Mən bir neçə ildir təkrarlayıram ki, təcrübə və tərcümədə - tərcümə olunmuş elmdə, hətta tərcümə olunmuş düşüncədə, ideyada, məktəbdə, ideologiyada, iqtisadiyyatda və siyasətdə həmişəlik qalmamalıyıq. Bu şüar ondan ötrüdür ki, insanın öz ağlından, düşüncəsindən, təhlilindən istifadə etməməsi, gözünü yumması və ona sırınan təbliğatdan qorxub bir sözü qəbul etməsi ayıbdır.[82]

[82] Qəzvinli müəllim və tələbələrlə görüşdə çıxışından: 2003.

**3. Universitetlərdə azdırıcı müəllimlərdən istifadə etməmək**

Bir müəllim məsihi də ola bilər. O, ümumiyyətlə İslamı qəbul etmir, eybi yoxdur, dəvət edin gəlsin. Namaz qılmayan dinsiz bir müəllimi dəvət etməyin də eybi yoxdur. Lakin ehtiyatlı olun ki, bu müəllim dinsizliyi yaymağa qalxmasın. Bu müqəddəs məsələyə toxunmasa, gəlməsinin eybi yoxdur; əgər toxunsa, gəlməsin. Bu mənim həmişəki sözümdür. Həmişə fikrim bu olub, indi də belədir. Gəlib elm öyrətmək, amma o elmin ruhu olan etiqadı məhv etmək istəyən bir müəllim universitetə gəlməməlidir. O, zərərli oğrudur.[83]

Tələbə ilə münasibətdə onların dini və inqilabçı inanclarının təməllərini zəiflətmək istəyən məmur, yaxud müəllim necə xeyirxah ola bilər?! Ölkənin elmi inkişafı üçün onun nə dəyəri var?! O, bu xalqın istiqlaliyyətinə nə kimi kömək göstərə bilər?! Bu, məmləkət üçün faydası olmayan keçmiş universitetin tayı olacaq. Siz buna imkan verməməlisiniz.[84]

---

[83] Mədəniyyət və ali təhsil naziri, nazirliyin əməkdaşları və universitet rektorları ilə görüşdə çıxışından: 1990.

[84] Mədəniyyət və ali təhsil naziri, nazirliyin əməkdaşları və universitet rektorları ilə görüşdə çıxışından: 1990.

**Vəzifələr**

**1. Hövzə tələbələri və ruhanilər**

**Fiqh metodikasından səmərəli istifadə**

Bu metodika və qaydalarla ehtiyac duyulan bütün məsələlərə cavab tapıb yolunu azmış bəşəriyyətə təqdim etmək olar. Bizim bu gün bu üslubdan səmərəli istifadə etməyə çox ehtiyacımız var.[85]

[85] Qum Elm Hövzəsinin tələbə və ruhanilərinin toplantısında çıxışından: 1992.

**İlahi mətnlərdən İslam nəzəriyyələrini öyrənmək**

Elmi hövzələr və din alimləri ilahi mətnlərdən İslamın humanitar mövzulara dair nəzəriyyələrini əldə etməyə, müxtəlif plan və proqramlar hazırlamaq üçün onları hamının ixtiyarına buraxmağa borcludurlar.[86]

[86] Qum Elm Hövzəsinin tələbə, müəllim və ruhaniləri ilə görüşdə çıxışından: 2010.

**2. Elm mərkəzləri və elmi elita**

**İxtisaslı qruplar yaratmaq və nəzəriyyələri araşdırmaq**

Bu məsələ universitetlərdə bütün elmi sahələrə, hətta fundamental, təbii və humanitar elmlərə də aiddir, mədəni və etiqadi sahələrə, hövzə elmlərinə də. Bu işlər (ixtisaslı qruplar yaratmaq və nəzəriyyələri araşdırmaq işləri) görülməlidir. Hövzə və universitet bu işləri görməlidir. Siz bu sahədə böyük fəaliyyət göstərə bilərsiniz. Bizim buna həqiqətən, ehtiyacımız var.[87]

---

[87] "Qələm əhli" birliyinin üzvləri ilə görüşdə çıxışından: 2003.

**İslam nəzəriyyələrini yazmaq və Qərb nəzəriyyələrini tənqid etmək cəsarəti**

Bir problem ortalığa qoyulanda cavab lazımdır; ya o cavab verəcək, ya biz. Lakin burada iki mühüm məsələ var: biri budur ki, bizim verdiyimiz cavab yazılmalıdır. Siz bu işi görməlisiniz. Bu, hövzə və universitet müəllimlərinin üzərinə düşür. Bu işi kim görməlidir? Bu daha dövlətin işi deyil. İkincisi də budur ki, liberal-demokratiyaya əsaslanan indiki Qərb görüşlərinə tənqid cəsarəti yaranmalıdır. Bu iki məsələ mütləq lazımdır. Bunların hər ikisi sizin əlinizdədir - humanitar elmlərin mütəxəssis müəllimlərinin əlində. Burada deyildi ki, bir idarəçilik və xüsusi struktur lazımdır. Bunlar haqda düşünmək olar. Bunu araşdırmaq lazımdır. Bu ən azı ümumi şəkildə düzgündür, lakin hər halda, iş humanitar elmlərin müəllimlərinin üzərinə düşür.[88]

---

[88] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2010.

**Humanitar elmlərdə yenilik üçün İslam mədəniyyətindən istifadə**

Bizim humanitar elmlərdə tədqiqata və yeniliyə ehtiyacımız var. Hüquq, iqtisadiyyat, politologiya və humanitar elmlərin digər önəmli sahələrini formalaşdıran və onu istehsal edən mühüm məsələlər bizim dərin və zəngin İslam mədəniyyətimizdə həqiqətən, mövcuddur. Onlardan istifadə etmək lazımdır. Əlbəttə, bu sahədə hövzə alimləri, həmçinin İslama mömin və etiqadlı müəllimlər araşdırma aparıb rol ifa edə bilərlər.[89]

---

[89] Ölkə üzrə universitet müəllimləri ilə görüşdə çıxışından: 2003.

**İslam əsaslarına uyğun humanitar elmlərin yazılması**

Müəllim, mütəfəkkir və tədqiqatçılar humanitar fənlər üçün İslamın əsaslarına uyğun olan, yanlış və səhv materialist fəlsəfələrə istinad etməyən kitablar yazmalıdırlar.[90]

[90] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2010.

**Məchul məsələləri araşdırmaq və bu ənənəni dirçəltmək**

Bizim siz möhtərəm müəllimlərə, elmi toplumun - istər Tibb Universitetinin, istər digər universitetlərin bütün nümayəndələrinə birinci və əsas sözümüz budur: Sizin yaxşı istedad və bacarığınız var, amma elm karvanından geri qaldığınıza görə bir yol tapmalısınız. Məchul məsələləri tədqiq edin, araşdırın, universitetlərdə bu hissi dirçəldin. Çoxlu məsələlər hələ kəşf olunmayıb, gözlənilmədən bir nəfər nəyisə kəşf edir. Yeni kəşf və yeni yol tapmaq da zəruri olaraq dünyada ən mütərəqqi texnologiyalardan asılı deyil ki, kimsə bunun bizdə olmadığını düşünsün. Xeyr! Müxtəlif sahələrdə bunu özümüzdən və elmi toplumdan gözləmək olar.[91]

[91] Tehranın Şəhid Behişti Unversitetinin müəllimləri ilə görüşdə çıxışından: 2003.

**Elmi gücləndirməyə çalışmaq və onu daxildə istehsal etmək**

Hər hansı bir sahənin nümunəvi elm adamları elmi daxildə gücləndirməyə və istehsal etməyə çalışmalıdırlar. Allaha şükür olsun ki, ölkədə bu imkanlar mövcuddur.[92]

---

[92] Beynəlxalq və ölkə olimpiadalarının qalibləri və 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış abituriyentlərlə görüşdə çıxışından: 2002.

**3. Elm sahəsinin məmurları**

**Elitalara şərait yaratmaq**

Ölkədə elmi işə məsuliyyət daşıyan şəxslər şərait yaratmalı və hamı kömək edib həm riyazi, həm təbii, həm humanitar, həm dini elmlərdə, həm də fəlsəfədə və əqli məsələlərdə nümunəvi və istedadlı gənclərə yol açmalıdırlar. Bütün bu fənlərdə bizim ehtiyacımız var ki, yüksək istedadlara şərait yaradılsın və onlar inkişaf edə bilsinlər. Bu, məmurların vəzifəsini ağırlaşdırır.[93]

---

[93] Gənc alimlərlə görüşdə çıxışından: 2007.

**Qərb alimlərinin əsərlərinin yalnız tərcümə olunmasının acı nəticələrinə diqqət yetirmək və buna qarşı tədbir görmək**

Humanitar elmləri tərcümə edib qərblilərin dediyini və yazdığını olduğu kimi gətirib gənclərimizə öyrətməyimiz, əslində, onlara ilahi və dini əsaslara və öz dəyərlərimizə qarşı şəkkaklıq, şübhə və inamsızlıq aşılamağımız çox da yaxşı hal deyil. Həm dövlət orqanlarında, məsələn, Təhsil nazirliyində, həm Mədəni İnqilab Ali Şurasında, həm də mövcud qərar mərkəzlərində, universitetlərin özündə və digər yerlərdə buna diqqət yetirmək lazımdır.[94]

---

[94] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2009.

**4. Universitet və universitet mənsubları**

**Ölkənin elmi səviyyəsini yüksəltmək**

Elmi sözün həqiqi mənasında istehsal etmək lazımdır. Bunun üçün isə metod və qaydalar lazımdır. Mühüm odur ki, elmi yenilik ruhu universitetdə dirçəlsin və yaşasın. Mən xoşbəxtlikdən, tələbələrdə bu həvəsi hiss etmişdim, indi müəllimlərdə də görürəm. Bunlar əl-ələ verib ölkənin elmi səviyyəsini yüksəltməlidirlər.[95]

---

[95] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**Humanitar elmlərdə nəzəriyyə yürütmək**

Bizim humanitar elmlərdə nəzəriyyə yürütməyə ehtiyacımız var. Dünyanın çoxlu hadisələri hətta iqtisadi, siyasi və digər sahələrdə də humanitar elmlərin mütəxəssislərinin sosioloji, psixoloji, fəlsəfi nəzəriyyələrinə tabedir. Meyarları təyin edən onlardır. Biz bu sahələrdə nəzəriyyə yürütməli, işləməli və çalışmalıyıq. Tələbə çalışmalıdır.[96]

---

[96] Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2008.

**Qərbin idxal etdiyi mədəniyyətə qarşı ümumi özünüdərk**

Düşünürəm ki, bütün elm mərkəzlərində Qərbdən amiranə şəkildə idxal edilən mədəniyyətə qarşı ümumi özünəinam yaratmalısınız. Bizim müəllim və tələbələrimizin mütəfəkkir beyinləri Qərbdən gələn, bəzilərinə görə Allah vəhyi hesab olunan, azacıq şübhəyə imkan verilməyən hüquqi, ictimai və siyasi nəzəriyyələri böyük tədqiqat mərkəzlərində çək-çevir etməlidir. Onların qarşısında sual qoymaq, mütləqçiliyi sındırmaq və yeni yollar tapmaq lazımdır; həm özləri istifadə etsinlər, həm də bəşəriyyətə təklif olunsun. Bu gün bizim ölkəmizin buna ehtiyacı və universitetdən belə bir gözləntisi var.[97]

---

[97] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**Ölkədə hərtərəfli Proqramlaşdırma hərəkatına başlamaq**

Universitet gərək ölkəyə və xalqa hərtərəfli və dərin bir Proqramlaşdırma hərəkatı təqdim etsin, iş və əmək sahibləri öz elmi yeniliklərimizlə İslam dəyərlərinə və din təfəkkürünə söykənən ədalətli və mütərəqqi bir cəmiyyətin bünovrəsini möhkəmləndirsinlər. Bu gün bizim ölkəmiz universitetdən bunu istəyir.[98]

---

[98] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**Elm və tədqiqatda qarşıya böyük məqsəd qoymaq**

Universitetlər və tədqiqat mərkəzləri bütün sahələrdə, təcrübi və humanitar elmlərdə və ölkənin ehtiyacı olan digər sahələrdə elm və tədqiqata dair qarşılarına böyük məqsədlər qoymalıdırlar.[99]

[99] İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışından: 2010.

### 5. Təhsil nazirliyi

Humanitar elmlərə dair başqa bir məsələ universitetə qəbul olunanlar və onu bitirənlər məsələsidir. Bu da Təhsil nazirliyinin ağır vəzifələrindən biridir. Biz görək universitetlər həqiqətən kimləri və hansı fakültələrə qəbul edir və təhsili bitirənlər bizim daha çox ehtiyacımız olan fakültələrdən məzun olurlar, yoxsa yox.[100]

---

[100] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2006.

**6. Mədəni İnqilab Ali Şurası**

**Elmin bütün sahələrində "Suallara cavab", "Elmi diskussiya" və "Metodik nəzəriyyə yürütmək" hərəkatları yaratmaq və onları gücləndirmək**

Hörmətli Mədəni İnqilab Şurasından, xüsusən də onun möhtərəm sədrindən istəyirəm ki, bütün universitet elmlərinin inkişafı, tərcümə olunmuş mətnlərin tənqidi, elm, texnika və sənayedə, xüsusən də humanitar elmlərdə və həmçinin İslam maarifində yaradıcılıq və istehsal dövrünün başlanması üçün bu ideyanı şuranın fəaliyyətində prioritet saysınlar, bu böyük iş üçün tədricən şərait yaransın və bizim universitetlərimiz yeni İslam sivilizasiyası yaratmaqda, elmin inkişafında, texnologiya və mədəniyyətin istehsalında ön sırada dursunlar. Şübhəsiz, hər iki qurum (Mədəni İnqilab Ali Şurası və hövzə müdiriyyəti) universitet və hövzə alimlərinin, o cümlədən sizin layihənizdən istifadə edəcək ki, məsələnin bütün cəhətlərinə riayət etməklə hövzə və universitetin bütün elmi çevrələrində "Suallara cavab", "Elmi diskussiya" və "Metodik nəzəriyyə yürütmək" hərəkatlarını yaradıb gücləndirsinlər.[101]

---

[101] Elm hövzəsi tədqiqatçılarının nəzəriyyə kürsüləri barədə məktubuna cavabdan: 2003.

**Mədəni mühəndislik**

Mən Mədəni İnqilab Ali Şurasının iclasında mədəni işlərdə çalışan dostlara demişəm ki, siz bu ölkədə mədəni mühəndissiniz. Həmin iclasda demişəm ki, iki əsas sahə vardır: humanitar elmlər və fundamental elmlər. Bunların hər birinin öz yeri var.[102]

[102] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

**Humanitar elmlərdə əsaslı iş görmək**

Biz humanitar elmlərdə əsaslı iş görməliyik. Bu söz birdən-birə kiminsə yadına düşməyib, illərdir deyilir və həyata keçməlidir. Bu işi kim görməlidir? Mədəni İnqilab Ali Şurası, bizim Allah-Taalanın yanında dəlil istəyəcəyimiz bu qurum. Ümidvarıq ki, onlar Allah-taalanın sorğu-sualından alnıaçıq çıxacaqlar. *(Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından-2006)*